■ **Dəmir Çeşməli**

## GÖZLƏRİN YOL ÇƏKİR

Gözlərin yol çəkir belədən- belə,
Getməyə həvəsim tükənib ,neynim
Gülşənim gül çəkir hey gülə-gülə,
Qaralır nəfəsim- tükənib neynim!

Düşmüsən əlimə pənah payımsan,
Qaranlıq gecədə nurlu ayımsan.
Yetişən günümsən ötən ayımsan ,
Yetişmir bir kəsim- tükənib neynim!

Əlimdə olanı ələm apardı,
Varlığım varında nəşə tapardı.
Ürəyim susmadı haray qopardı...
Bəs etmir öz səsim -tükənib neynim!

Dadıma dad verir dadın hələ ki,
Adımla çəkilir adın hələ ki.
Mənimlə əylənən Qadın hələ ki,
Hara yetər bəsim? Tükənib neynim.

## TƏRSİNƏ YAZIRAM

Gözündə damlanı ümman bilirəm,
Buluddan qopanı duman bilirəm.
Axşamlar sabahı güman bilirəm,
Tərsinə yazıram bu yazını mən.

Hay-haray deyirəm , hay qoparıram,
Neçə-neçə ulduz, ay qoparıram.
Fəsildən-fəsilə yay qoparıram,
Görsənə yazıram bu yazını mən.

Aşınan varıdı, varı üzdədi,
Olanı dilində, dili sözdədi.
Görünən gözüdü, gözü gözdədi,
Tər sinə yazıram bu yazını mən.

Görünən yeridi,-yeri görünür,
Ölüsü diridi,-diri görünür.
Minindən biridi,-biri görünür!
Birsinə yazıram bu yazını mən.

## OLMADI

Özül bildim tikdiyimi,
Göyə çəkdim çəkdiyimi.
Şaxta vurdu əkdiyimi,
Küləş bitdi, dən olmadı.

Bağçasından gül dərirdim,
Canı alıb, can verirdim.
Röyada səni görürdüm,
Yuxularım çin olmadı.

Dağ dalında dağ yatırdı,
Nəfəsimə meh qatırdı.
Mən gələndə gün batırdı,
Mənim günüm gün olmadı.

Sular daşdı, sel çağladı,
Yolları basdı, bağladı.
Buludlar elə ağladı,
Duman öldü, çən olmadı.

Ümidlər saraldı-soldu,
Payızın qəlbinə doldu.
Həsrətin gümanım oldu,
Arxa uçdu, ön olmadı.

Eniş-yoxuş bilməz idim,
Say-hesaba gəlməz idim.
Dəmir idim, ölməz idim,
Mən də sonda “mən” olmadım.

## DAĞLAR A DAĞLAR

Təklənib gedirəm tənha qalırsız,
Güman qaldı izə, dağlar a dağlar.
Yollar yola düşür, qəmə dalırsız,
Qarda çıxır dizə, dağlar a dağlar.

Döşünə döşənib,cığır salırdıq,
Ətəyindən tutub qəmə dalardıq.
Zirvənə boylanıb paklıq alardıq,
Var-dövlətdin bizə, dağlar a dağlar.

Ürək ürəkdimi səndən ayrılsa,
Xəncər pas atmazmı qından ayrılsa?
Dəmir dəmir deyil, gendən ayrılsa,
Can vermişəm sizə, dağlar a dağlar.

## MƏNDİM

Önümdə önlənib qalıb,
Ünümdə ünlənib qalıb.
Yönümdü,-yönlənib qalıb,
O yolun yolçusu məndim.
Axtarıb arayıb tapdım,
Dərdimə yarayıb,-tapdım.
Hayıf ki qarıyıb,-tapdım,
O yolun yolçusu məndim.

Əydilər, burdular neynim,
Əzdilər, yordular neynim?
Qəfildən vurdular neynim,
O yolun yolçusu məndim.

Məndən olan mən deyildim,
Bu xətadan gen deyildim.
Neynəyim mən sən deyildim,
O yolun yolçusu məndim.

Əyilibdi sağa-sola,
Dil tökürəm gəlmir yola.
İndi deyin: keçmiş ola...
...O yolun yolçusu məndim.

Zirvədən boylanan zirvə özüdü,
Yönünə aydınlıq, özünə işıq.
O yandan bu yana baxan gözüdü,
Ününə aydınlıq, gözünə işıq.

Görkəmi görünür, çöhrəsi çönmür,
Xəyalı göylərdə, göylərdən enmir.
Axarı-baxarı üzədi, dönmür,
Önünə aydınlıq, üzünə işıq.

Haçannan susanım susub,-dillənnir,
Əhsən bu alqışa, qalqış sellənir.
Nədəndi köksümün közü küllənir,
Külünə aydınlıq, közünə işıq.

## AYIRDI

Bürüyüb dünyamı,-tutmuşdu ahım,
İnandım inama, yetər pənahım.
Demə təp-təzəymiş köhnə günahım,
Təzəni köhnədən illər ayırdı.

Səhrada bozaran daşdı,-bitmişdim,
Arzumu oxşayıb kama yetmişdim.
Yarı yolda, yarı çöldə itmişdim,
Könlümü könlünnən çöllər ayırdı.

O gözdə göz vardı, gözümnən oldu,
Baxışı, duruşu sözümnən oldu.
Nə oldusa oldu, özümnən oldu,
Əl üstə əl varmış, əllər ayırdı.

And yerim andıma olanı dedi,
Cannan can istədi, alanı dedi.
Nə doğrunu, nə də yalanı dedi,
Dilimə dil oldu, dillər ayırdı.

Atılıb qalmışdım atılan yerdə,
Halalı haramı qatılan yerdə.
Havası, şəfası satılan yerdə,
Gedəsi deyildim yellər ayırdı.

## XƏBƏRİN YOXDU

Özüm öz içimdə olsamda, nədən?
Çölündə itirəm, xəbərin yoxdu.
Xəyalım! Xəyala dalsamda nədən?
Saralıb bitirəm, xəbərin yoxdu.

Könlümdə tufandı küləklər gəlir,
Arzusa,-arzuya diləklər gəlir.
Çiynimə qonmağa mələklər gəlir,
Gülüstü ətirəm, xəbərin yoxdu.

Saçlarım pəjmürdə, sığalsız qalıb,
Gecələr axşamdan nağılsız qalıb.
Sənnən mənə mən tək ağılsız qalıb,
Kamala yetirəm, , xəbərin yoxdu.

Vaxt var olsa, vaxta baxmaram sənsiz,
Özümü yandırıb yaxmaram sənsiz.
Su axıtmaz suda axmaram sənsiz,
Önündən ötürəm, , xəbərin yoxdu.

Bir xəbər boylanır uzaq İraqdan,
Sarınır canıma qaçır qıraqdan.
Dərdimi asmışam quru varaqdan,
Ön və son sətirəm , xəbərin yoxdu.

## OLSUN

Varım yox, yoxuma gəldin,
Ətrimə, qoxuma gəldin.
Sağ ol ki yuxuma gəldin,
Yuxuların şirin olsun.

Tac deyil başımın qarı,
Yük olur, özgənin varı.
Gedirəm uzağa sarı,
Cəhənnəmdə yerin olsun.
Harda sevinc, orda kədər,
Qoşa gələr , qoşa gedər.
Ay Dəmir Yerdən-Göy qədər,
Məhəbbətin dərin olsun.

## EHTİYATLI OL

*(Şair İslamın 60 illiyinə)*

Yorulub, dumana qaldı o yollar,
Döngədən dönəndə ehtiyatlı ol.
Donuna sığmayır daşanda sullar,
Enişi enəndə ehtiyatlı ol.

Göylərə boylanır yamacın üzü,
Bərəyə dikilib ovçunun gözü.
Ay yerə boylanır, tükənib sözü?
Ulduzlar sönəndə ehtiyatlı ol.

Buludlar əl açır buz yağışıyla,
Qayalar baş-başa verib daşıyla.
Neçə könül susub öz sirdaşıyla,
Susanlar dinəndə ehtiyatlı ol.

## MƏNDİM

Şaxta idi, qar çilədi,
Saç ağartdı, ağ elədi.
Dünyanın işi belədi,
Donnduran o, donan məndim.

Saraldı, solmadı, gülü,
Bəzədi çəməni, çölü.
Sussa da sevginin dili,
Qandıran o, qanan məndim.

Minib çapır Qıratını,
Harda qoyub Düratını?
Könül atım , sür atını,
Sındıran o, sınan məndim.

Heyran oldum bal səsinə,
Balmı qatıb nəfəsinə?
Düşüb eşqin həvəsinə,
Yandıran o, yanan məndim.

Xatirələr həmən-həmən,
Gülmü açır çəmən-çəmən?
Xəbər alır onu mənnən,
Andıran o, anan məndim.

## GƏLMİR

İsinmədim istisinə,
Közü harda qalıb, gəlmir.
İstim yetmir istisinə,
İzi harda qalıb, gəlmir.

Dərə-təpə aşıb gedib,
Sel-sel olub, daşıb gedib.
Görən deyər çaşıb gedib,
Düzü harda qalıb, gəlmir.

Adı vardı,-Süsəndimi?
Könlü məndən küsəndimi?
Səhər mehi əsəndimi?
Özü harda qalıb,gəlmir.

## SEVƏN VAR MƏNİ

Yalanına dözəcəyəm,
Olanını düzəcəyəm.
Bu dünyanı gəzəcəyəm,
Hələ ki sevən var məni.

Göydən yerə enəcəyəm,
İzdən yola dönəcəyəm.
Susub, yenə dinəcəyəm,
Hələ ki sevən var məni.

Qar düşüb, yaşıma gəlib,
Şeh qonub daşıma gəlib.
Xoşbaxtlıq başıma gəlib,
Hələ ki sevən var məni.

İşıq düşür gözdən-gözə,
Yaş damır yanaqdan üzə.
İnadımda baxmır sözə,
Hələ ki sevən var məni.